# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**XİDMƏTDƏN İSTİFADƏYƏ DAİR**

**TƏLİMAT**

## Xidmətin adı: "İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi"

# 1.

Bu xidmət İqtisadiyyat Nazirliyi tərəfindən tətbiq olunan inzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə onlayn rejimdə ödənilməsini nəzərdə tutur. İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi üçün istifadəçi Nazirliyin saytında yerləşdirilmiş Elektron xidmətlər bölməsinə daxil olaraq "Cərimələr və sanksiyalar" keçidi vasitəsilə müvafiq xidmətə müraciət edir.



# 2.

Sistemə keçid mərhələsində istifadəçiyə məxsus vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) və elektron poçt ünvanı müvafiq bölmələrə daxil edilir və “Göndər” düyməsi basılır.




# 3.

Ekranda sahibkara münasibətdə İqtisadiyyat Nazirliyi tərəfindən tətbiq olunmuş hər hansı inzibati cərimə, yaxud maliyyə sanksiyası barədə məlumat (Qərarın nömrəsi, tarixi, inzibati cərimə, yaxud maliyyə sanksiyası tətbiq olunan şəxs barədə məlumat, VÖEN, ümumi məbləğ və qalıq məbləği) əks olunur. Hər hansı inzibati cərimə, yaxud maliyyə sanksiyası tətbiq olunmuşdursa, həmin məbləğ əks olunan sətirin sonundakı “Ödəmək” düyməsi basılır



# 4.

Növbəti pəncərədə ödəniş kartının (Visa, Master) növü seçilir, ödəniləcək məbləğ (tam və ya bir hissəsi) müvafiq xanaya daxil edilir, “Hesabla” düyməsi basılaraq daxil edilən məğləğə görə müvafiq ödəniş sistemi tərəfindən tətbiq olunan xidmət haqqı müəyyən edilir və “Ödəmək” düyməsi basılır.




# 5.

Plastik karta dair məlumatlar daxil edilərək “İrəli” düyməsi basılır.




Ekranda ödənişin uğurla həyata keçirildiyini (və ya keçirilmədiyini) bildirən təsdiq bildirişi görünür.

## DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK !